**Cahidə Etibar qızı YAQUBOVA**
Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu Folklorşünaslıq, doktorant
E-mail:cahidey1996@gmail.com
orcid.org/0000-0001-7757-1723

# ƏHVALATLARIN AŞIQ ŞEİR NÜMUNƏLƏRİNİN YARANMASINDA ÖNƏMİ
## (Aşıq Gülarə və Aşıq Zülfiyyənin repertuarı əsasında)

**Xülasə**

Aşıq sənəti Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi mədəniyyətinin qədim qollarından biridir. Bu gün dünyada marağa səbəb olan aşıq sənəti bir çox ölkələrin diqqət mərkəzindədir. Son illərdə xarici ölkələrdə təşkil edilən konfrans və tədbirlərdə aşıqların iştirak etməsi və təltiflər alması görülür. Milli sərvətimizin qorunması üçün və inkişafı üçün dövlətimiz xüsusi tədbirlər görür. SSR dağıldıqdan sonra bu sahəyə diqqət və qayğı daha da artmışdır. XX əsrə qədər qadın aşıqlar sənətdə o qədər də görünmürdü və bu sahədə qadınların olması düzgün hesab edilmədiyi üçün süni əngəllər yaradılırdı. Ancaq cəmiyyətin inkişafı, müstəqillik dövrünün gəlməsiylə XXI əsrdən qadın aşıqların sayı nisbətən artdı. İlk qadın aşığın kim olduğu əvvəlki dövrlərdə qadınların azad hərəkət edə bilməməsi və yalnız qadın məclislərində olması, tədqiq edilməməsi səbəbindən dəqiq məlum deyil. Bu sahədə yetərincə kişi aşıqlarla bərabər qadın aşıqlar da var. XXI əsrdə digər dövrlərlə müqayisədə qadın aşıqlara mənfi münasibət azalmışdır, ancaq istisna deyil ki, hələ də onları bu sənətə uyğun hesab etməyib aşıqlıq sənətini yalnız kişi sənəti hesab edənlər var. Buna baxmayaraq, qadın aşıqlar məclislərə dəvət edilirlər, aşıq şeir nümunələrini ifa edir, yenisini yaradır və inkişaf etməyə, bu sahədə yetərli təhsil almağa cəhd edirlər. Sazda ifa edən aşıq qadınlar sırasına Aşıq Dilşad, Aşıq Ülkər, Aşıq Bəsti, Aşıq Savad, Aşıq Samirə, Aşıq Gülarə, Aşıq Zülfiyyə, Aşıq Ayşə Səyyadqızı, Aşıq Kəmalə Mehdiyeva, Aşıq Ulduz, Aşıq Lətifə, Aşıq Aytəkin və başqaları aiddir.

**Açar sözlər:** aşıq sənəti, folklor, əhvalat, Aşıq Gülarə, Aşıq Zülfiyyə

**UOT:** 7.072.2
**DOİ:** https://doi.org/ 10.54414/NLLR7971

**Giriş**

Şifahi xalq ədəbiyyatının qollarından biri olan aşıqlığı ozan sənətinin varisi hesab edirlər. Aşıq sənəti Azərbaycan musiqi və ədəbi mühitində kamil ifaçılara, ustad aşıqlara, əsrlərlə bu sənətə sadiq qalıb davam etdirən peşəkarlara tanıqlıq edir. Aşıq şeirlərində ənənələrə sadiq qalınaraq müxtəlif məzmunlu əsərlər ərsəyə gətirilmişdir. Həmin əsərlərdə ictimai mühitdə baş verənlər, gerçəklər, həyat hadisələri bədii lövhələrlə, real təsvir vasitələri ilə canlandırılaraq dinləyicilərə ötürülmüşdür.

Aşıq sənətinin inkişafı üçün mütəmadi olaraq dövlət tərəfindən xüsusi tədbirlər görülür. Dünyada aşıqlıq sənətinə o qədər maraq artmışdır ki, xarici müəllimlər və tələbələr bu sənətin sirrlərini öyrənməyə çalışır. Son zamanlar peşəkar aşıqlarımız xarici ölkələrin konfranslarına, tədbirlərinə dəvət edilir. Aşıq sənətinin Azərbaycanın qədim mədəni irsimiz olduğu 2009-cu ilin 28 sentyabr-2oktyabr tarixlərində Abu-Dabi şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitənin IV sessiyası zamanı Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına əlavə edilərək sübut edilmişdir. Bu hadisə aşıqlıq sənətinin Azərbaycanın qədim mədəni irsi olduğunu beynəlxalq aləmdə göstərərək bir daha təsdiqləmiş olur.[1]

Aşıq şeir nümunələri özbaşına yaranmır. Əslində hər hansısa dastan, şeir, nağıl, hekayə, bayatıların yaranmasının kökündə bir səbəb

vardır ki, bu da yeni bir əsərin yaranmasına təkan verir. Bəzən səbəbi axtardıqda dəqiqlik müəyyən edilə bilmir, bu çox əsrlər keçərək əsl gerçəkliyin unudulması və törəmələrin yaranmasıyla bağlıdır. Yalnız yaxın zamanlarda əsərin yaranmasında rol oynayan reallıq isə ya hələ də şahidləri olduğu üçün, ya da müəllifli olduğu üçün məlum olur. Əvvəlki dövrlərdə tədqiqat işinin zəifliyi və unudulmuş gerçəklər əfsanəviliyə yol vermişdir. Hal-hazırda isə bunu öyrənmək və araşdırmaq kifayət qədər mürəkkəb və demək olar ki, mümkünsüz məsələdir. Firuz Mustafa əsərlərin yaranma prosesi haqqında deyir ki, bədii əsərlərin qələmə alınmasına təkan verən hadisə olmalıdır. Bu hadisələr daxili və ya xarici təkanla bağlıdır, məhz bu da yaradıcılıq psixologiyası kimi qiymətləndirilir. Psixoloqlar yazılmış əsərdə yazıçının əsəri yazarkən hansı psixoloji vəziyyətdə olduqlarıyla maraqlanırlar. Bəzi yazıçılar özləri də psixoloq kimi əsəri yazarkən əsərinin yaranma səbəbini, yazı proseslərini təsvir edir. Bu cür yazı forması da sənədli qeydlər adlanır və bədii əsər qədər maraq kəsb edir. Belə yazıçılardan biri də Konstantin Paustovski olmuşdur. O da əsərlərində dəqiq qeydlərdən istifadə edərək psixoloq mövqeyində olmuşdur.[2]

Başqa əsərlərin yarandığı kimi aşıq şeir nümunələrinin də bəzisinin meydana gəlmə səbəbləri məlumdur. Məsələn, bu haqda Aşıq Gülarə və Aşıq Zülfiyyə bəzi qeydlər etmişlər. Onlar yazdıqları aşıq şeir nümunələrinin necə yarandığını, buna səbəb olan hadisələri danışırlar. Həmin şeirlərin yaranmasının arxasında müxtəlif məsələlər yatır. Məsələn, Aşıq Zülfiyyə aşağıdakı şeirin toydaca bədahətən yazıldığını bildirir. Bu toyda bir kişi “Xatırla məni” mahnısının ifa edilməsini istəyir. Bu zaman da həmin qoca kişi öz həyatı haqqında danışır. Məlum olur ki, sevdiyi xanım Dağıstanlıdır. Axşamtərəfi qoca zarafatla mənim mahnım necə oldu deyə soruşur, Aşıq Zülfiyyə də 85 yaşın var, qoy indi cavanlar oynasın deyir. Qoca isə 85 yaşım olsa da, nə zamansa sevdiyim xanım gələcək və son nəfəsimdə gözlərimi bağlayacaq ümidiylə yaşayıram deyir:

“Dindirməyin qan ağlıyır gözlərim
Gücdən düşüb taqətsizdi dizdərim
Qulağımnan getmir şirin sözdərin
O tayda yarım qalıb yazım baharım qalıb
Öldürür bu dərt məni, bülbül camalım qalıb” [3]

Aşıq Zülfiyyənin rəfiqəsi ona öz uşaqlığından danışır. Deyir ki, atam ziyalı adamdır və bir gün bizə yazıçı Anar, Bəxtiyar Vahabzadə, Zeynəb Xanlarova, Əzizə Cəfərova qonaq gəlir. Zeynəb Xanlarova Şirvanlı qızı görür, başını tumarlayır və Şirvan qızlarının gözəlliyindən danışır. Sonda isə o, qıza disk verir ki, bir xatirə qalsın. Aşıq Zülfiyyə rəfiqəsini dinləyərkən bir şeir yazır:

“Səni görən günü mənim ağlımı
Başımnan almısan, Ay Şirvannı qız
Şirin söhbətinlə, şirin sözünlə
Xəyala dalmısan, ay Şirvannı qız
Bülbül kimi sən qonmusan budağa
Canımı yolunda verrəm sadağa
Xatirələr çəkib səni uzağa
Xəyala dalmısan , Ay Şirvannı qız”[3]

Danışılanlara nəzərən demək olar ki, qadınlarda Allahın verdiyi emoisonallıq, mərhəmət hissi daha güclü olduğu üçün onlar kiçik nünas belə olsa, heç nəyə biganə qala bilmir. Bir zamanlar qadın azadlığının məhdud dövründə bu sənətdə davam etmələrinə izn verilməmişdi, buna görə də saysız-hesabsız ciddi problemlərlə üzləşmişdilər. Bunlara baxmayaraq, aşıq sənətində qadınların qarşısına birdəfəlik sədd çəkilə bilməmişdir. Zamanla Azərbaycan qadın aşıqları kişi aşıqlardan geri qalmadığını, babalardan qalan mirasımızı qoruya bildiklərini sübut edə bilmişlər. Bununla belə müasir dövrdə qadın aşıqlar diqqət mərkəzindən kənarda qalmamışlar. Lətifə Hacıyeva “Azərbaycan qadın aşıq şeirinin özəllikləri” məqaləsində bəzi məsələlərə fikir bildirir. Ümumilikdə, poeziya ilə əlaqəli olan yaradıcılıq örnəkləri, müəllifin kimliyindən asılı olmayaraq, onun duyğu və düşüncələrini ifadə edərək dünyada baş verənlərə biganə olmadığını göstərmişdi. Aşıq qadınlar da özlərinəxas şəkildə öz dünyalarını gözəl şeir nümunələri ilə açıqlamışlar.[4]

Qadın aşıqlarla, kişi aşıqlar arasında fərqlər mövcuddur, elə əsərlər var ki, onu qadın aşıqların səsiylə eşitmək əsərin rəngarəngliyini, təsir gücünü göz önünə sərir və bunu kişi aşıq ifa edəndə kobud səs temberi pozur. Bu baxımdan

hər iki cinsin aşıq sənətində öz yeri vardır. Bu haqda Məhərrəm Qasımlı müsahibəsində qadın aşıqların ifasının hər zaman kişi aşıqlardan zərif olduğunu deyir və Aşıq Samirənin, Aşıq Kəmalə Qubadlının adlarını xüsusilə vurğulayır. Elə saz havaları var ki, bu incəliklərə görə həmin saz havalarını yalnız qadın aşıqlar ifa edə bilər. Professor qadın aşıqların saz ifa etməsini müsbət qarşılayır, buna baxmayaraq bəzi qadın aşıqları bayağ sözlər istifadə etdiyi üçün qəbul etmədiyini söyləyir. [ 5]

Digər əhvalat əsasında yaranmış şeirlərindən danışan qadın aşıq isə Aşıq Gülarədir. Gəncədə faciəli helikopter qəzasında mühüm insanların ölümü Aşıq Gülarəyə ağır təsir etmişdir və buna görə də bir şeir yazmışdır. Düşmən günahsız insanlara zülm edir, qeyrətli insanların başını duman alıb. Yağı düşmən neçə qocanın, cavanın həyatına son qoyur, artıq türklər birləşib ər meydanında olmalıdır. Özünə müraciət edən Aşıq Gülarə özünü təsəlli edir ki, Allah kömək olsa, qeyrətli ər, hünər meydanı olacaq. Gəraylı janrındakı şeirdə birinci bənd ababb və digər bəndlər isə cccbb, çççbb, dddbb şəklində qafiyələnir. Gəncə faciəsində həsr edilən bu aşıq şeirində Aşıq Gülarənin daxili kədəri, nə qədər hüznlü və məyus olması sözlərə çevrilmişdir. Aşıq şeir şəklinin digər xüsusiyyəti kimi öz adına müraciət də var və 8 hecalıdır.

“Zülm eylədi yağı yaman
İndi hünər meydanıdı
Başımızı alıb duman
İndi hünər meydanıdı
Qeyrətdi ər meydanıdı

Gör məhv oldu necə canlar
Həm qocalar, həm cavanlar
Birləşəlim türk olanlar
İndi hünər meydanıdı
Qeyrətdi ər meydanıdı

Mən deyən ər igitdər
Meydannarda nər igitdər
Talan oldu, el igitdər
İndi hünər meydanıdı
Qeyrətdi ər meydanıdı
Ay Gülarə, ağlamaynan
Çalxalanır indi zaman
Allah kömək olsa, inan
İndi hünər meydanıdı
Qeyrətdi ər meydanıdı “[6]

Aşıq Gülarə incəsənət xadimləriylə birlikdə İraqdakı folklor festivalına gedir və orada hava çox isti olduğu üçün səhhətində ciddi problem yaşayır. Zəhərlənən Aşıq Gülarəyə Əbdüllətif Bəndəroğlu kömək edir, həkimlər gətirir. Tibbi köməklikdən sonra sağalan Aşıq Gülarə bir şeir yazır. Qərib məmləkətdə olan aşıq ölümə yalvarır ki, məni gözləyənim var, ana deyib soraqlanayım var. Yad ellərdə insan ata-anasız olur, tək başına ölüm ağırdır, aşığın yolunu övladı, qohum-qardaşı gözləyir.

“Zalım əcəl qıyma mənə
Gözü yolda qalanım var
Dağlar üsdən dağ görmüşəm
Can evimdə talanım var

Yerim, göyüm, asimanım
Körpə çiçək cavidanım
Yerim, göyüm asimanım
Ömrüm, günüm, dil imanım
Körpə çiçək cavidanım

Ana deyib soranım var
Elə bilmə, səmasızam
Yurd-yuvasız, komasızam
Atasızam, anasızam
Saçlarını yolanım var
Gülarəyəm, ağlar elim
Yad ellərdə qıyma ölüm
Qohum, qardaş gözlər yolum
Məni məndən alanım var.”[6]

Belə nəticəyə gəlmək olar ki, hər bir əsərin yaranmasında mütləq bir əhvalat vardır, və ya sadəcə yaradıcının təxəyyülü hesabına baş vermişdir. Hər bir ehtimalda əsərin yaranması üçün tələb olunan bədii strukturlara diqqət etmək vacibdir.

**Nəticə**

Qadın aşıqların danışdıqlarına əsasən demək olar ki, onlar aşıq yaradıcılığının forma və xüsusiyyətlərinə diqqət yetiriblər. Gülarə Azaflı daha çox gəraylı janrına müraciət etmişdirsə, Zülfiyyə İbadova 11-14 hecalı şeirlər söyləmişdir. “Canlı insan xəzinəsi” adlandırılan aşıq Şərəf Taşlıova aşıq havasını rüzgarın səsinə bənzədərək azərbaycanlı qadın aşıqlar kimi aşıq qadınları dünyada yoxdur, buna görə də aşıqlıq görüntüsünü, geyimləri və ənənələrini yaşatmaq

lazımdır. [7] Doğrudan da, Azərbaycan qadın aşıqları saz çalmaqda, oxumaqda və şeir yazmaqda məharətli olsalar da, bu gün artıq heç bir aşıq qiyafətini qoruya bilməmişlərdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. https://unesco.preslib.az/az/page/Sp0PlzWCKk
2. https://525.az/news/192447-eser-nece-yaranir-firuz-mustafa-yazir
3. https://dergipark.org.tr/tr/download/article-file/288726
4. Söyləyici Aşıq Zülfiyyə İbadova
5. https://bizimyazi.az/xalq-dun%c9%99n-asiga-k%c9%99ram%c9%99t-sahibi-bir-mocuz%c9%99li-adam-kimi-baxirdi/
6. Söyləyici Aşıq Gülarə Azaflı
7. https://edebiyyat-az.com/?p=38516

**Джаида Якубова**
Институт фольклора Академии наук Азербайджана
Фольклорист, аспирант
*cahidey1996@gmail.com*
*orcid.org/0000-0001-7757-1723*

**Значение создания примеров поэзии ашыгов**
**(На основе репертуара Ашига Гуларэ и Ашига Зульфии)**

**Резюме**

Искусство ашыгов является одной из древних ветвей азербайджанской устной народной литературы и музыкальной культуры. В настоящее время искусство ашыгов, привлекающее внимание по всему миру, находится в центре внимания многих стран. В последние годы наблюдается участие ашыгов в конференциях и мероприятиях, организованных за границей, и получение наград. Наше государство принимает специальные меры для сохранения и развития нашего национального наследия. После распада СССР внимание и забота о данной области еще более усилились. До XX века женские ашыги были менее заметны в искусстве, и в этой области создавались искусственные барьеры из-за недостаточного учета присутствия женщин. Однако с развитием общества и приходом независимости количество женских ашыгов относительно увеличилось с начала XXI века. Неизвестно точно, кто была первой женской ашыгой, из-за невозможности женщин свободно передвигаться в предыдущие периоды и их присутствия только на женских собраниях, которые оставались неизученными. В этой области достаточно женских ашыгов наряду с мужчинами. В XXI веке, по сравнению с другими периодами, отношение к женским ашыгам стало более благоприятным, но это не означает, что их все еще не считают подходящими для этого искусства, и есть те, кто считает искусство ашыгов только мужским. Тем не менее, женские ашыги приглашаются на собрания, исполняют образцы ашыгской поэзии, создают новые и стремятся к развитию и получению достаточного образования в этой области. Среди женских ашыгов, исполняющих на сазе (традиционный музыкальный инструмент), можно назвать Ашиг Дильшад, Ашиг Улькер, Ашиг Бясти, Ашиг Савад, Ашиг Самире, Ашиг Гуларэ, Ашиг Зульфии, Ашиг Айше Сейядгызы, Ашиг Кемале Мехдиева, Ашиг Улдуз, Ашиг Лятые, Ашиг Айтекин и другие.

**Ключевые слова:** искусство ашика, фольклор, эвалат, Ашик Гюляре, Ашик Зюльфия

**Cahide Etibar YAGUBOVA**
Folklore İnstitute of ANAS, Azerbaijan
Folklorism, doctoral student cahidey1996@gmail.com
orcid.org/0000-0001-7757-1723

**The importance of creating examples of ashıq poems**
**(Based on the repertoire of Ashiq Gulara and Ashiq Zulfiyya)**

**Summary**

The art of ashig (troubadours) is one of the ancient branches of Azerbaijani oral folk literature and musical culture. Today, it attracts attention worldwide and is the focus of many countries. In recent

years, conferences and events organized in foreign countries have seen the participation of ashigs and their receiving of awards. Our state takes special measures for the preservation and development of our national heritage. After the dissolution of the SSR, attention and care for this field have increased even more. Until the 20th century, female ashigs were not as visible in the art, and their presence was not properly acknowledged, leading to artificial barriers. However, with societal development and the era of independence, the number of female ashigs has relatively increased in the 21st century. The identity of the first female ashig is not precisely known due to the limited movement of women and their presence only in women's gatherings during earlier periods. Despite some lingering negative attitudes towards female ashigs compared to previous eras, they are increasingly recognized in the art form, although some still only consider troubadour art as a male domain. Nevertheless, female ashigs are invited to gatherings, perform troubadour poetry, create new works, and strive to receive sufficient education and develop in this field. Among the female troubadours performing on the saz (a musical instrument) are Ashıq Dilshad, Ashıq Ulker, Ashıq Besti, Ashıq Savad, Ashıq Samire, Ashıq Gulare, Ashıq Zulfiyye, Aşıq Ayshe Seyyadqızı, Ashıq Kemale Mehdiyeva, Ashıq Ulduz, Ashıq Letife, Ashıq Aytekin, and others.

**Keywords:** troubadour art, folklore, episode, Ashıq Gulare, Ashıq Zulfiyye

**Daxil olub:** 02.10.2023